Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 57 saylı Kürdəmir seçki dairəsi üzrə Çöhranlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər İsmayılov Yengibar Umudvar oğlunun və Qəribov İsrayıl Əlisa oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli 30 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 27 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 57 saylı Kürdəmir seçki dairəsi üzrə Çöhranlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər İsmayılov Yengibar Umudvar oğlunun və Qəribov İsrayıl Əlisa oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli 30 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 57 saylı Kürdəmir seçki dairəsi üzrə Çöhranlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər İsmayılov Yengibar Umudvar oğlu və Qəribov İsrayıl Əlisa oğlu 2014-cü il dekabrın 25-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsi üzrə 16 saylı seçki məntəqələrində səsvermənin nəticələrini mübahisələndirmiş, səslərin hesablanması zamanı qanun pozuntusuna yol verildiyini bildirmiş və müvafiq tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Qeydə alınmış namizədlər Y.U.İsmayılovun və İ.Ə.Qəribovun şikayəti qismən təmin edilməli, mübahisələndirdiyi seçki məntəqələrində səslərin təkrar hesablanması və iddia olunan qanun pozuntularının araşdırılması üçün müraciət aidiyyəti üzrə 57 saylı Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət

qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 57 saylı Kürdəmir seçki dairəsi üzrə Çöhranlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər İsmayılov Yengibar Umudvar oğlunun və Qəribov İsrayıl Əlisa oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli 30 saylı şikayəti qismən təmin edilsin, müraciət səslərin təkrar hesablanması və qanun pozuntularının araşdırılması üçün həmin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov